# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Müqəddəs milli dəyərlərimiz - Dövlətçilik şüuru



7

# Münxendən verilən mesaj: yeni strateji mərhələ başlayır!



2


SƏS

№ 013 (7423)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

17 fevral 2026-cı il.
Qiymәti 1 manat


# Sosial siyasətin əsas HƏDƏFİ - əhalinin rifahını yüksəltmək!



5

## Rəqəmsal tələ: asılılıq zehnimizi yatırır



8

## Vətən xainlərinin cinayət əməllərinin yeni detalları açıqlandı



6

## Yeni Azərbaycan Partiyası inam və etimad ünvanıdır



4

## İstixana qazları qlobal istiləşməni sürətləndirir: təhlükə 5-7 ilə pik həddə çatacaq



8

## Paşinyan üçün ƏSAS ŞƏRT - Konstitusiyanı dəyiş, sülh imzalayaq!



5

# Münxendən verilən mesaj: yeni strateji mərhələ başlayır!




***Dövlətimizin başçısı İlham Əliyevin ötən həftə Almaniyaya səfəri zamanı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "France 24" telekanalına verdiyi müsahibədə jurnalistin "Avqustun 8-də Sizin, Ermənistanın Baş naziri Nikol Paşinyanın və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə üçtərəfli görüş keçirildi.***

Azərbaycan ilə Ermənistan arasında münaqişəyə son qoymaq, nəqliyyat marşrutlarının açılması və münasibətlərin normallaşdırılması haqqında bəyannamə imzalandı. Tam sülhün və tam normallaşmanın tezliklə olacağını düşünürsünüzmü?" sualına verdiyi cavab regionun gələcək geosiyasi dinamikasına dair mühüm mesajlarla yadda qaldı. Xüsusilə ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması və TRIPP - Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu layihəsi barədə səsləndirilən fikirlər diqqət mərkəzinə çevrildi.














Prezident açıq şəkildə bəyan etdi ki, Ermənistan ərazisindən keçərək Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək marşrutun reallaşacağına heç bir şübhə yoxdur. Onun sözlərinə görə, bu layihədə ABŞ-ın rolu həlledicidir və Prezident Trampın adını daşıyan təşəbbüs artıq Vaşinqtonun siyasi gündəliyindədir. Qeyd olundu ki, Ermənistan seqmenti cəmi 40 kilometrdən bir qədər artıqdır, halbuki Azərbaycan öz ərazisində yüzlərlə kilometr dəmir yolu inşa edir və Naxçıvanda geniş bərpa işləri aparılır. Bu fakt layihənin texniki baxımdan mürəkkəb olmadığını, əsas məsələni siyasi iradənin təşkil etdiyini göstərir.

Əslində, bu bəyanat "Zəngəzur dəhlizi" adlandırılan marşrutun yeni mərhələyə keçdiyini nümayiş etdirir. Əgər indiyə qədər məsələ əsasən regional müzakirə predmeti idisə, indi artıq qlobal aktorun açıq iştirakı ilə beynəlxalq layihə statusu qazanır. Bu isə Cənubi Qafqazın nəqliyyat xəritəsini dəyişə biləcək addım kimi qiymətləndirilir.

Müsahibənin ikinci mühüm istiqaməti ABŞ-Azərbaycan Strateji Tərəfdaşlıq Xartiyası oldu. Prezident İlham Əliyev bu sənədi ölkə üçün böyük uğur adlandıraraq Azərbaycanın dünyanın ən güclü dövləti ilə rəsmi strateji tərəfdaş statusu əldə etdiyini vurğuladı. Xartiyada müdafiə sənayesi, enerji, süni intellekt, investisiya, ticarət və bağlantı sahələri əhatə olunur. Eyni zamanda Azərbaycana silah tədarükü ilə bağlı bütün məhdudiyyətlərin aradan qaldırıldığı bildirildi.

Bu məqam regionun təhlükəsizlik arxitekturası baxımından xüsusi əhəmiyyət daşıyır. Çünki müdafiə əməkdaşlığının genişlənməsi təkcə hərbi sahə ilə məhdudlaşmır, eyni zamanda siyasi çəkini və strateji balansı da formalaşdırır. Azərbaycanın həm enerji təhlükəsizliyi, həm də nəqliyyat dəhlizləri üzrə rolu nəzərə alındıqda, Vaşinqtonla institusional əməkdaşlığın genişlənməsi ölkənin beynəlxalq mövqelərini daha da möhkəmləndirir.

Ötən həftə ABŞ vitse-prezidentinin səfəri də konkret nəticələrə yönəlmiş diplomatik addım kimi qiymətləndirilir. Bu səfər göstərdi ki, Vaşinqton Cənubi Qafqazı artıq kənar müşahidəçi kimi deyil, birbaşa tərəfdaşlıq platforması kimi görür.

Beləliklə, Münxendə səslənən fikirlər sadəcə siyasi bəyanatlar deyil: onlar yeni nəqliyyat marşrutlarının açılması, təhlükəsizlik əməkdaşlığının dərinləşməsi və Azərbaycanın qlobal geosiyasi mövqeyinin güclənməsi istiqamətində atılan real addımların anonsu kimi qəbul olunur. Region üçün isə bu, yeni mərhələnin başlanğıcı deməkdir.

***Mətanət Məmmədova***

# Azərbaycan - Serbiya: strateji tərəfdaşlıq münasibətləri

## Prezident İlham Əliyev: "Bizim gələcək üçün də açıq-aydın planlarımız var"

Müasir dövrdə Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş daxili və xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi sistemini təkmilləşdirir, həm də regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Beynəlxalq təşkilatların rəhbərləri ilə, ayrı-ayrı dövlət başçıları ilə keçirilən işgüzar görüşlər, əldə olunan razılaşmalar, imzalanan sənədlər bir daha sübut edir ki, Azərbaycan regionun lider ölkəsidir və onun iştirakı olmadan Cənubi Qafqaz regionunda heç bir layihə, heç bir anlaşma reallaşa bilməz. Bu günlər bir çox Avropa ölkələri mövcud Azərbaycan reallıqlarını düzgün qiymətləndirərək, sözü ilə, imzası bir olan, etibarlı tərəfdaş kimi qəbul edilən, Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verən Azərbaycanla əməkdaşlıq etməyə, əlaqələr qurmağa səy göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Serbiya Respublikasına rəsmi səfəri dövlətlərarası ikitərəfli və çoxşaxəli əməkdaşlığın uğurlu inkişafına söykənir. Prezident İlham Əliyev Serbiya Prezidenti Aleksandar Vuçiçlə mətbuata bəyanatında iki ölkənin gələcəklə bağlı planlarından danışıb. Dövlətimizin başçısı bununla bağlı deyib: "Bizim gələcək üçün də açıq-aydın planlarımız var. Bunlar həm siyasi, həm iqtisadi, energetika sahəsində əlaqələrimizi daha da gücləndirmək, beynəlxalq platformalarda, beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmək, birgə sərmayə layihələrini həyata keçirmək, energetika və nəqliyyat sahəsində yeni yaranmış imkanlardan yararlanaraq, daha irəliyə baxaraq çox güclü bir sinergiya yaratmaqdır".











Dövlətimizin başçısının səfərində mühüm əhəmiyyətli sənədlər imzalanıb. Serbiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı üçün iqtisadiyyatın müxtəlif sahələrində istifadə olunmamış böyük potensial var. 2013-cü ildən etibarən iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq çərçivəsində, tam anlaşma və qarşılıqlı maraqlarımıza hörmət şəraitində inkişaf edir. Səfər zamanı siyasi əməkdaşlıq, beynəlxalq arenada qarşılıqlı dəstək, enerji, kənd təsərrüfatı kimi qarşılıqlı maraq doğuran ən mühüm məsələlərin yüksək səviyyədə müzakirəsi mümkün olub. Belə ki, fevralın 15-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin iştirakı ilə Azərbaycan-Serbiya sənədlərinin mübadiləsi mərasimi olub.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qaz-turbin elektrik stansiyasının layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş"i, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Serbiya Respublikasının İqtisadiyyat Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Serbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2026-2030-cu illər üçün mədəniyyət sahəsində Əməkdaşlıq Memorandumu", "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Serbiya Respublikasının İdman Nazirliyi arasında idman sahəsində Anlaşma Memorandumu" və digər sənədlər imzalanıb.

### "BU GÜN SERBİYA TƏBİİ SƏRVƏTLƏRİ OLMAYAN BİR ÖLKƏ OLMASINA BAXMAYARAQ, İQTİSADİ CƏHƏTDƏN UĞURLA İNKİŞAF EDİR"

"Sizin (Prezident Vuçiç - red.) rəhbərliyiniz altında Serbiya uğurla inkişaf edir, həm beynəlxalq müstəvidə böyük hörmət qazanmışdır, eyni zamanda, iqtisadi və sosial sahədə böyük islahatlar aparılmışdır". Bu sözləri Prezident İlham Əliyev Serbiya Prezidenti Aleksandar Vuçiçlə mətbuata bəyanatında söyləyib.

Dövlətimizin başçısı deyib ki, bunun nəticəsində bu gün Serbiya təbii sərvətləri olmayan bir ölkə olmasına baxmayaraq, iqtisadi cəhətdən uğurla inkişaf edir, öz gücünə arxalanır, heç bir yerdən heç bir yardım almır. Bugünkü şəraitdə, xüsusilə Avropa məkanında yerləşən ölkə üçün bu, xüsusi amil kimi qiymətləndirilməlidir.

Müxtəlif sahələr üzrə sənədlərin imzalanması da Azərbaycan-Serbiya münasibətlərinin yeni mərhələyə qədəm qoymasından xəbər verir. Serbiya Prezidenti Aleksandar Vuçiçin mətbuata bəyanatla çıxışında ölkəmiz haqqında dediyi xoş sözlər hər birimizdə qürur hissi yaratdı. "İstərdim ki, azərbaycanlılar Serbiyaya tez-tez səfər etsinlər. Rahatlıq, əminamanlıq, təhlükəsizlik tam şəkildə təmin edilir".Bu barədə Serbiya Prezidenti Aleksandar Vuçiç Prezident İlham Əliyevlə mətbuata bəyanatında bildirib.

"Hər iki ölkədə təhlükəsizlik ən yüksək səviyyədədir və bizim Azərbaycan xalqı ilə olan birbaşa təmaslarımız da vacibdir", - deyə Serbiya Prezidenti əlavə edib. Bu da ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib. Bu baxımdan, Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin təməlində Azərbaycanın milli maraqlarının hər zaman üstün tutulduğunu əminliklə söyləmək olar.

***Zümrüd BAYRAMOVA***

# Yeni Azərbaycan Partiyası inam və etimad ünvanıdır

## YAP Xətai rayon təşkilatının təsis olunmasının 33 illiyi qeyd edilib











***Fevralın 13-də Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının təsis olunmasının 33 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdən öncə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub. Tədbirdə YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Milli Məclisin deputatları Vüqar Rəhimzadə və Pərvanə Vəliyeva, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli və Elm və Təhsil Nazirliyinin Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru akademik Vaqif Abbasov çıxış ediblər.

Çıxışlarda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir dövlətçilik tariximizin dönüş nöqtəsi olduğu bildirilib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası ötən müddət ərzində Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə önəmli nailiyyətlərə imza ataraq ümumxalq etimadı qazanıb.

Çıxışlarda Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasının tarixi əhəmiyyəti xüsusi vurğulanaraq qazanılan nailiyyətlərin əsasında milli maraqlara söykənən məqsədyönlü siyasətin və xalq-iqtidar birliyinin dayandığı qeyd edilib.

Daha sonra partiyanın ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə fəxri fərman, YAP sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim olunub. Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonda bədii hissə təqdim olunub.

# Zatulinə ağıl duası



Siyasət ən sadə formada desək, cəmiyyətin necə idarə olunacağına dair qərarların qəbul edilməsi prosesidir. Kim qərar verir, hansı dəyərlərə əsaslanır, resurslar kimə və necə bölünür, hüquq və azadlıqlar necə qorunur - bunların hamısı siyasətin içindədir. Siyasət təkcə parlament, hökumət və ya seçki demək deyil, o, gündəlik həyatımıza toxunan bütün kollektiv seçimlərdir. Amma siyasət tez-tez həqiqətdən çox maraqlarla idarə olunur. Ona görə də "həqiqət payını" artırmaq üçün insanlara təkcə şüarlar yox, həm də bəzi şeyləri demək və öyrətmək lazım gəlir.Siyasət din deyil, sual verilə bilən sahədir. İnsanlara aşılanmalıdır ki, heç bir siyasi fikir müqəddəs deyil və "bizim tərəf həmişə haqlıdır" düşüncəsi də təhlükəlidir. Sual vermək xəyanət deyil, sağlamlıq əlamətidir. Çoxları faktla fikrin fərqini qarışdırır. İnsanlara demək lazımdır ki, fakt yoxlanıla biləndir, fikir isə şərhdir.Qorxu üzərindən qurulan siyasət yalanı sevir, həqiqət adətən sakitdir, yalan isə səs-küylü. Həqiqət rahat olmaya bilər, insanlara dürüst şəkildə deyilməlidir ki, həqiqət bəzən xoşumuza gəlmir, sevdiyimiz siyasətçi də səhv edə bilər, problemlərin sadə həlləri nadir hallarda doğrudur. "Mən bilmirəm" demək gücsüzlük deyil, amma siyasətdə ən böyük problemlərdən biri hamının hər şeydən əmin danışmasıdır.Siyasət həm də qəliz məsələdir, yalanı daha çoxdur, ana xəttində imitasiya var, sağı-solu bəlli olmayan sahə də adlandırırlar və eyni zamanda, paradoksal olsa da hər sahədən üstün durumdadır. Bunu anladıq, kafamıza yazdıq.

Amma, bu yanaşmanın, tərzin də bir həddi var, bu qədər xaotik də olmamalıdır. Rusiyanın siyasi "elita"sındakı bəzi zatı qırıq Zatulin kimilərin Azərbaycana hürmələri kimi. Bəli, Azərbaycanı hədəfə almaq ona verilən tapşırıqdır və bunu insafən "uğurla" yerinə yetirir. Bəlkə bir az da artıqlaması ilə edir, bununla erməni parasına nə qədər sayqı göstərdiyini sübut etməyə çalışır.

Diqqət edin, iftira atmaq istədiyi bir məmləkətin, bu Azərbaycandır, Xarici İşlər Nazirliyi onun təmsil etdiyi ölkənin səfirini hüzuruna çağırır və ona nota təqdim edir, Zatulinin hərəkətlərinin qəbuledilməz olduğunu bildirir, dolayısı ilə "itinizin ipini yığın" tələbini yazılı şəkildə baş diplomatın qabağına qoyur. Səbəbkar, bu Zatulindir, isə heç nə olmamış kimi davranır və hətta Mark Tvendən sitat gətirir. Hərçənd ondan bundan artığını gözləmək də olmazdı. Əksər rusiyalı siyasətçi kimi onun da çiyninin üstündə duran bədən üzvünün içində beyin əvəzinə başqa qarışıq formalaşıb.Belə anlaşılır ki, Zatulin bu yanaşması, mövqeyi ilə dünya ictimaiyyətinə Azərbaycanın Qarabağ bölgəsində özünə yuva qurmuş erməni separatçılarının ətraf 7 rayon da daxil olmaqla özlərinə "dövlətcik" qurmasına, Ermənistan silahlı qüvvələrinin və Rusiya Ordusunun birbaşa iştirakı ilə şəhər və kəndlərimizin dağıdılmasına, 1 milyona yaxın azərbaycanlının öz dogma yurdundan qovmasına, dirəniş göstərən və qaçmaq imkanı olmayan 20 mindən artıq soydaşımızın vəhşicəsinə öldürülməsinə, minlərlə vətəndaşımızın əsir və girov götürülməsinə haqq qazandırır, onların əməllərində heç bir cinayətin olmadığını deyir. Zatulin Qarabağ separatçılarının liderlərinə Bakı məhkəməsi tərəfindən verilən hökmləri kəskin şəkildə pisləyən açıqlaması ilə özünün nə qədər kibirli, xəstə zehniyyətli olduğunu sübuta yetirir.Zatulin separatçılara verilən cəzaları ədalətsiz sayır. Amma Dumanın deputatının dedikləri öz ölkəsində baş verənlərdən bir nümunə kimi ortaya qoyulsaydı, ona haradasa haqq qazandırmaq olardı. Nə yazıqlar ki, Rusiyada baş verənlərin timsalında Azərbaycanda separatçılara verilən cəza çooox humanistdir. Təkcə Çeçenistanda baş verənləri xatırlatmaq kifayətdir ki, daşlar öz yerinə otursun. Kremlin hərb maşını iki dəfə bu kiçik Şimali Qafqaz respublikasına var-gücü ilə hücum edib. Səbəb Çeçenistanda başlayan və Zatulinin çox həvəslə təkrarladığı azadlıq mübarizəsi idi. Mərkəzi hakimiyyət müstəqilliyə can atan, rusların boyunduruğundan, amansız müstəmləkə siyasətindən qurtulmağa çalışan çeçenlərin arzusunu tankların tırtılları altında qoydu, liderlərin heç biri məhkəmə zalına gəlmək imkanı əldə edə bilmədi, hamısı məhv edildi, həbsxana barmaqlıqları arxasında döyülərək, boğularaq öldürüldülər. Zatulin onların niyə müdafiəsinə qalxmır?Son günlər Rusiya Dövlət Dumasının bəzi deputatlarının Qarabağ separatçılarını açıq şəkildə müdafiə etməsi cəmiyyətdə haqlı suallar doğurur. Azərbaycan torpaqlarının uzun illər işğal altında saxlanılması, həmin dövrdə minlərlə azərbaycanlının qətlə yetirilməsi, yüz minlərlə insanın öz doğma yurdundan didərgin salınması faktları beynəlxalq sənədlərdə və tarixi mənbələrdə öz əksini tapdığı halda, bu reallıqların görməzdən gəlinməsi siyasi riyakarlıq təsiri bağışlayır.Qarabağ münaqişəsi təkcə ərazi məsələsi deyildi. Bu, həm də etnik təmizləmə, insan hüquqlarının kobud şəkildə pozulması və beynəlxalq hüququn açıq-aşkar tapdanması ilə müşayiət olunan bir proses idi. Xocalı soyqırımı kimi faciələr dünya ictimaiyyətinə yaxşı məlumdur. Buna baxmayaraq, bəzi rus siyasətçilərinin separatçıları "əzilən tərəf" kimi təqdim etməsi obyektivlikdən uzaq yanaşmadır.Bu məqamda haqlı sual yaranır: eyni siyasətçilər niyə Rusiyanın öz daxilində, xüsusilə Çeçenistanda baş vermiş hadisələrə münasibətdə eyni həssaslığı nümayiş etdirmirlər? 1990-cı illərdə və 2000-ci illərin əvvəllərində Çeçenistanda aparılan hərbi əməliyyatlar zamanı minlərlə mülki şəxsin həyatını itirdiyi, şəhərlərin yerlə-yeksan edildiyi beynəlxalq hesabatlarda qeyd olunub. Qroznının dağıdılması, genişmiqyaslı əməliyyatlar və insan hüquqları ilə bağlı iddialar dünya mediasında geniş işıqlandırılmışdı.Əgər prinsipial mövqe insan hüquqlarının müdafiəsidirsə, bu prinsip universal olmalıdır. Əks halda, selektiv yanaşma ortaya çıxır: bir yerdə separatizm pislənir, digər yerdə isə siyasi maraqlara uyğun olaraq müdafiə olunur. Bu isə beynəlxalq hüquqa və ədalət anlayışına ziddir.Azərbaycan öz ərazi bütövlüyünü beynəlxalq hüquq çərçivəsində bərpa etdiyini bəyan edib və bu mövqe BMT qətnamələrinə əsaslanır. Hər bir dövlət kimi Azərbaycan da suverenliyini qorumaq hüququna malikdir. Eyni hüquq Rusiyaya da aiddir. O zaman sual olunur: niyə bir ölkənin ərazi bütövlüyü toxunulmaz sayılır, digər ölkənin ərazi bütövlüyü isə mübahisə predmetinə çevrilir?Siyasi mövqelər dəyişə bilər, geosiyasi maraqlar zamanla formalaşa bilər. Lakin insan hüquqları, mülki əhalinin təhlükəsizliyi və dövlətlərin suverenliyi məsələsində ikili standartlar beynəlxalq münasibətlər sisteminə zərbə vurur. Tarixi yaddaş selektiv olmamalıdır. Əgər ədalətdən danışılırsa, bu ədalət hər kəs üçün keçərli olmalıdır.Bu gün regionda davamlı sülhün bərqərar olması üçün ilk növbədə reallıqların qəbul edilməsi və obyektiv yanaşma vacibdir. Əks halda, birtərəfli bəyanatlar və tarixi faktların görməzdən gəlinməsi yeni gərginliklərə zəmin yarada bilər.

**V.VƏLİYEV**



# Sosial siyasətin əsas HƏDƏFİ - əhalinin rifahını yüksəltmək!

Azərbaycanda iqtisadi inkişafın nəticəsi olaraq sosial rifahın artması prosesi müşahidə olunur. Bu istiqamətdə əsas addımlıardan biri də maaş və pensiyaların mütamadi olaraq yüksəldilməsidir. Prezident İlham Əliyevin tapşırıqları əsasında son illər aparılan ardıcıl sosial islahatların mühüm uğurlarından biri olaraq pensiyalarda ildən-ilə artım dinamikası müşahidə edilir. Dövlətimizin başçısının yeni Sərəncamı həmin artımın davam etməsinə imkan verib və 2025-ci il üzrə orta aylıq əməkhaqqının illik artım göstəricisinə uyğun olaraq bütün növ pensiyalar bu il yanvarın 1-dən 9,3 faiz indeksləşdirilməklə artırılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AzərTAc-a verilən məlumata görə, yeni artımla ölkəmizdə orta aylıq pensiya 543 manatdan 593 manata, yaşa görə orta aylıq pensiya 578 manatdan 632 manata çatıb ki, bu göstəricilər 2018-ci ilə nisbətən müvafiq olaraq 2,8 dəfə və 2,7 dəfə çoxdur.

Həmin artımlarda minimum pensiya artımı ilə yanaşı, hər ilin əvvəlindən indeksləşdirmə əsasında artımların edilməsi mühüm rola malikdir. Məsələn, bu artımlar 2020-ci ildə 16,6 faiz, 2021-ci ildə 11,4 faiz, 2022-ci ildə 3,4 faiz (pensiyalara maddi yardım əlavə olunmaqla orta pensiya artımı 9 faiz olub), 2023-cü ildə 14,7 faiz, 2024-cü ildə 11,2 faiz, 2025-ci ildə 8,1 faiz və bu il 9,3 faiz təşkil edib. Pensiyalarda indeksasiya əsasında artımlar üçün əlavə olaraq hər il ayrılan vəsaitlər isə 2020-ci ildə 498,2 milyon manat, 2021-ci ildə 352,84 milyon manat, 2022-ci ildə 117,02 milyon manat, 2023-cü ildə 693,78 milyon manat, 2024-cü ildə 618,09 milyon manat, 2025-ci ildə 506,49 milyon manat və bu il 640 milyon manatdır.

Ümumilikdə isə pensiya təminatı üçün ayrılan illik vəsait 2018-ci illə müqayisədə 2,3 dəfə artaraq bu il 7 milyard 993 milyon manata çatıb. Digər tərəfdən, işləyən əhalinin gələcək pensiya təminatı üçün dövlət tərəfindən mühüm dəstək olaraq hər il dövlətimizin başçısının Sərəncamı ilə fərdi hesablardakı pensiya kapitalları da artırılır. Məsələn, bu artımlar 2020-ci ildə 2,6 faiz, 2021-ci ildə 2,8 faiz, 2022-ci ildə 6,7 faiz, 2023-cü ildə 13,9 faiz, 2024-cü ildə 8,8 faiz, 2025-ci ildə 2,2 faiz və bu il 5,6 faiz təşkil edir.

Pensiyalarda olduğu kimi, pensiya kapitallarında artım da elektron sistem üzərindən avtomatik həyata keçirilir. Hər bir kəs e-sosial portalında həm öz əməkhaqlarından ayırmalar, həm də hər il indeksasiya hesabına pensiya kapitallarında baş verən artımları izləmək imkanına malikdir.

Həmin artımlar qeyri-formal məşğulluq sahəsində işləyən, özünü sosial sığorta sistemindən kənarda qoyan işçilərə də bir çağırışdır: Əgər əmək müqaviləsi ilə çalışsalar, onlar da gələcək pensiya hüququna sahib olmaq üçün fərdi şəxsi hesablara sahib olar və bu hesablarda toplanan vəsaitlərinin hər il dövlət tərəfindən də indeksləşdirilərək artırılması imkanından faydalanarlar. Burada zərər çəkən yalnız qeyri-formal işləyənlər ola bilər. Onlar sosial sığorta sistemindən kənar qalır, nəticədə həm rəsmi iş stajı yığılmır, həm də pensiya kapitalı toplanmır. Buna görə də, vətəndaşlar özləri bundan yayınmalıdır. Ya rəsmi ştatlı işçi kimi, ya da əmək müqaviləsi ilə işləməlidirlər və bunu işəgötürəndən tələb etməlidirlər.

Azərbaycan dövləti sosial müdafiəni əsas prioritet elan edib və iqtisadi gəlirlərimizin çox əhəmiyyətli bir hissəsi- dövlət büdcəsinin 40 faizdən çoxu- məhz sosial sahəyə ayrılır. Son dövrlərdə isə əmək hüquqlarının qorunmasına nəzarət daha da gücləndirilib və işçilərin qeyri-qanuni işlədilməsinin qarşısı alınır. Bu da həmin vətəndaşların sosial sığorta sisteminə cəlb olunmasını təmin edir. İqtisadi imkanlarımız artdıqca bu sahədə vəziyyət daha da yaxşılaşacaq və əhalinin sosial rifahı yüksələcək. Azərbaycan sosial dövlət prinsipini qəbul edib və bu istiqamətdə də siyasət yürüdür. Prezident İlham Əliyev tərəfindən bununla bağlı qəti siyasi iradə ortaya qoyulub və bunu reallaşdırmaq üçün dövlətin bütün imkanlarından istifadə edilir. Şübhə yoxdur ki, 2026-cı il ərzində də maaş və pensiyaların, sosial müavinətlərin artırılması təmin olunacaq və əhalinin sosial vəziyyəti daha da yaxşılaşacaq.

***Elçin Bayramlı***

# Az hərəkət, artan çəki...



***Bugünkü dünyada fiziki aktivlik sağlam həyatın əsas şərtlərindən biri hesab edilsə də, müasir həyat tərzi insanları getdikcə daha az hərəkət edən bir modelə sürükləyir. Oturaq iş rejimi, texnologiyadan asılılıq, şəhər həyatının sürəti və nəqliyyat vərdişləri fiziki aktivliyi gündəlik həyatın arxa planına keçirir. Bu prosesin ən görünən nəticələrindən biri isə piylənmənin sürətlə artmasıdır.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Fiziki aktivliyin azalması piylənməyə necə yol açır?

Elmi araşdırmalar göstərir ki, fiziki aktivlik azalanda orqanizmin enerji balansı pozulur. Qəbul edilən kalori sərf olunmadıqda, artıq enerji piy toxuması şəklində yığılır. Bu proses təkcə çəki artımı ilə məhdudlaşmır, eyni zamanda maddələr mübadiləsinin zəifləməsinə, insulin müqavimətinin artmasına və ürək-damar xəstəliklərinin riskinin yüksəlməsinə səbəb olur. Mütəxəssislərin fikrincə, gündəlik hərəkətsizlik artıq fərdi seçim deyil, sosial və struktur problemə çevrilib. İnsanlar fiziki aktiv olmamaqdan çox zaman "imkan tapa bilməmәkdən" şikayətlənirlər.

## Azərbaycanda mənzərə: az hərəkət, artan risk

Azərbaycanda piylənmə ilə bağlı statistika son illərdə narahatedici tendensiya göstərir. Yetkin əhali arasında artıq çəki və piylənmə halları xüsusilə şəhər yerlərində daha çox müşahidə olunur. Bunun əsas səbəblərindən biri gündəlik fiziki aktivliyin aşağı səviyyədə qalmasıdır.

Şəhər mühitində avtomobildən intensiv istifadə, piyada hərəkət üçün məhdud imkanlar, ofis və xidmət sektorunda uzunmüddətli oturaq iş rejimi fiziki hərəkəti minimuma endirir. Məktəb yaşlı uşaqlar arasında da aktiv oyunların yerini ekran qarşısında vaxt keçirmə vərdişi tutur ki, bu da erkən yaşlardan artıq çəki riskini artırır. Müşahidələr göstərir ki, fiziki aktivliyin azalması Azərbaycanda daha çox həyat tərzi və infrastruktur amilləri ilə bağlıdır, nəinki məlumat çatışmazlığı ilə.

## Avropada vəziyyət: aktivlik daha çoxdur, amma problem qalır

Avropa ölkələrində fiziki aktivliyin təşviqi dövlət siyasətinin əsas istiqamətlərindən biri olsa da, burada da piylənmə problemi aktuallığını qoruyur. Fərq ondadır ki, Avropada fiziki aktivlik səviyyəsi nisbətən yüksək olsa da, yüksək kalorili qidalanma, hazır qida mədəniyyəti və stressli həyat tərzi bu üstünlüyü qismən neytrallaşdırır.

## Piylənmənin sosial və iqtisadi nəticələri

Fiziki aktivliyin aşağı olması nəticəsində yaranan piylənmə təkcə sağlamlıq problemi deyil, eyni zamanda sosial və iqtisadi yükdür. Artıq çəki ilə əlaqəli xəstəliklər səhiyyə xərclərini artırır, əmək qabiliyyətini azaldır və həyat keyfiyyətini aşağı salır. Bu problem uzunmüddətli perspektivdə dövlət büdcəsinə və sosial rifaha birbaşa təsir göstərir. Azərbaycanda bu yükün gələcək illərdə daha da artacağı proqnozlaşdırılır, əgər profilaktik tədbirlər gücləndirilməzsə.

## Problemin həlli hansı istiqamətdə mümkündür?

Mütəxəssislər hesab edirlər ki, piylənmə ilə mübarizə yalnız fərdi diet və idman tövsiyələri ilə məhdudlaşmamalıdır. Şəhər mühitinin yenidən planlaşdırılması, fiziki aktivliyi təşviq edən ictimai məkanların artırılması, məktəblərdə və iş yerlərində hərəkətli həyat tərzinin təşviqi əsas həll yolları sırasındadır. Avropa təcrübəsi göstərir ki, fiziki aktivlik dövlət siyasətinə çevrildikdə, piylənmə ilə mübarizə daha effektiv olur. Azərbaycanda da bu istiqamətdə atılacaq addımlar uzunmüddətli sağlam cəmiyyətin formalaşmasında həlledici rol oynaya bilər.

## Nəticə...

Fiziki aktivliyin aşağı olması həm Azərbaycanda, həm də Avropada piylənmə statistikasına birbaşa təsir göstərir. Lakin fərqi yaradan əsas amil insanların fərdi seçimləri deyil, onları əhatə edən sosial, mədəni və struktur şəraitdir. Aktiv həyat üçün imkanlar yaradılmadıqca, piylənmə problemi təkcə tibbi deyil, ümummilli problem olaraq qalmaqda davam edəcək.

***Günel Fərzəliyeva***

# Paşinyan üçün ƏSAS ŞƏRT - Konstitusiyanı dəyiş, sülh imzalayaq!

### Mətləb Salahov: "Ermənistanda Konstitusiya dəyişikliyi olmasa, Sülh Müqaviləsinin imzalanması mümkünsüzdür"

"Hazırkı Ermənistan hökumətinin rəsmi İrəvanı iqtisadi böhrandan və sosial fəlakətdən qurtarmaq üçün Azərbaycanla əlaqələrə üstünlük verməsi və bu məsələdən daxili siyasətdə öz xeyri üçün istifadə etməsi başadüşüləndir. Lakin məsələ real sülhə gəlincə, hələ ki, Nikol Paşinyan hökumətinin ciddi bir addımına şahidlik etməmişik. Bunun əvəzində Azərbaycan neft məhsulları və taxıl dolu qatarları Ermənistana buraxmaqla, əslində, olduqca mühüm humanitar addım atmış oldu. Bu, həm də iki ölkə arasındakı əlaqələr və cəmiyyətlərin sülhə hazırlanması baxımından da önəmli hadisədir.



Lakin rəsmi Bakının bu addımları qarşılıqsız qalacaqsa, üstəgəl N.Paşinyan bu prosesdən ancaq seçkiöncəsi öz nüfuzunu yüksəltmək üçün istifadə edəcəksə, o zaman real sülh barədə danışmaq hələ tezdir".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, TRIPP layihəsi işə düşsə belə, bu, rəsmi sülh müqaviləsi üçün yetərli deyil. "Azərbaycan Prezidenti İlham Əliyev də Münxen Təhlükəsizlik Sammitində bu məsələyə toxunub. Prezident vurğulayıb ki, Azərbaycanın mövqeyi artıq Ermənistan tərəfinə açıq şəkildə çatdırılıb: "Ermənistanın Konstitusiyasına dəyişikliklər edilməlidir. Bu dəyişikliklər edilən kimi sülh müqaviləsini növbəti gün imzalaya bilərik". Artıq bu, rəsmi bakı hazırkı Ermənistan hakimiyyətinə olan əsas şərtidir. N.Paşinyan və komandası sülh istəyirsə, ilk olaraq Azərbaycana qarşı ərazi iddiaları ilə dolu hazırkı Konstitusiyasına "əl gəzdirməlidir". Ermənistan Konstitusiyası dəyişilməsə, sülh müqaviləsinin imzalanması mümkünsüzdür".

***Afət Tahirqızı***

# Vətən xainlərinin cinayət əməllərinin yeni detalları açıqlandı

Azərbaycanın uğurlarından narahat olan xarici və daxili qüvvələr müxtəlif vaxtlarda müxtəlif formalardan istifadə etməklə möhtəşəm uğurları dağıtmağa ümid ediblər. Xüsusilə də dağıdıcı müxalifətdən və hakimiyyətdə olmuş bəzi şəxslərdən istifadə etməklə dövlət çevrilişi etməyə cəhd ediblər. Ancaq onların məkrli niyyətləri baş tutmadı və dövlət çevrilişi planlaşdıranlar ifşa edilərək həbs edildilər. Həbs edilənlər sırasında Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyev, AXCP sədri Əli Kərimli, AXCP sədrinin müşaviri Məmməd İbrahim və digərləri var. Fevralın 12-də Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilib.Bütün bu kimi faktlarla təsdiq olunur ki, Ramiz Mehdiyevin dəstəsinin əsas fəalları Abbas Abbasov, Əli Kərimli, Rüstəm İbrahimbəyov (vəfat edib), Fuad Qəhrəmanlı, Qənimət Zayıdov, Məmməd İbrahim və Eldar Əmirovdur. Bundan başqa, DTX tərəfindən yayımlanmış siyahıdan məlum olur ki, proseslərin maliyyələşdirilməsi məqsədi ilə Rusiyadan Azərbaycana Eltac Əhməd oğlu Əlisoy, Müşfiq İbrahim oğlu Qazıyev, Müşfiq Əzizalı oğlu Əsgərov, İbrahim Çərkəz oğlu Məcidov, Elməddin Əziz oğlu İsmayılov, Əli Əliağa oğlu Cavadov, Cavanşir Nusrəddin oğlu Abuşov, Mehman Cavanşir oğlu Abuşov və Qərib Mehdi oğlu Nəbiyev böyük məbləğdə pullar göndəriblər. Sözügedən şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.



### Qənimət Zayidovun satqınlığı birinci hal deyil

Araşdırmalarla, eləcə də DTX-nin ictimaiyyət üçün açıqladığı məlumatdan aydın olur ki, Ramiz Mehdiyev mütəmadi olaraq Rusiya Elmlər Akademiyasının əmkdaşı Lyudimila Afanesevlə telefon danışıqları aparıb. Hansı ki, sözügedən qadın Rusiya xüsusi xidmət orqanının ştatlı zabitidir. Sadəcə əyninə elm qiyafəsi geyinib özünü elm ocağının eksperti kimi göstərir. R.Mehdiyev onunla məsləhətləşmələr aparır, yeni təlimatlar əldə edir və çirkli planların həyata keçirilməsində iştirak edən şəxslərə nə qədər pulların çatdırılması məsələsinə aydınlıq gətirilir. Bəzi hallarda xaricdə oturub Əli Kərimlinin sözçüsü rolunda çıxış edən Qənimət Zayidov da Rusiyanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq edib, onlardan müəyyən təlimatlar alıb. Hansı ki, bu şəxs zamanında fars-molla rejiminin terror maşını olan "ETELLAT"-la əlaqələr yaratmış və bununla bağlı etiraflar da etmişdir. Sonradan Fransanın ermənipərəst dairələri ilə münasibətlər qurararq əqidəsini və xislətini dəyişməli olmuşdur. Satılmağa adətkar olan Qənimət Zayidov hələ 2013-cü ilin əvvəlindən etibarən Əli Kərimlinin tapşırıqları əsasında xarici ölkənin xüsusi xidmət orqanlarının nümayəndələri ilə gizli əlaqəyə girərək danışıqlar aparmışdır. Müzakirələrin əsas məğzini istənilən tapşırıqlar qarşılığında pullar istənilmiş və Azərbaycan Respublikasında hakimiyyətə gətirilməsində onlardan dəstək xahiş etmişdir. Hətta onun Rusiya xüsusi xidmət orqanının zabiti ilə telefon danışığında ( Həmin telefon danışığının səs yazısı sosial şəbəkələrdə yayımlanıb. İ.Ə.) yalvardığı görünür. Məxluq yalvarış səslə xahiş edir ki, onlara kömək edilsin, vəd də verir ki, Əli Kərimli hakimiyyətə gələcəyi təqdirdə Azərbaycan Respublikası mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacaq.

Bu və digər təxribatların əsas rol almasında o zaman Kremlin sifarişi əsasında Ramiz Mehdiyevə, Əli Kərimliyə və digərlərinə dəstək üçün yaradılan "Milyarderlər İttifaqı"nın üzvləri xüsusi fəallıq göstəriblər. "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın üzvlərinə yaşadıqları xarici ölkədə tabeliklərində işləyən və ya digər formada himayələrində olan Azərbaycan vətəndaşlarının 2013-cü ildə Prezident seçkiləri zamanı Azərbaycana göndərilmələri, onların hər birinin Azərbaycandakı qohumları və yaxınlarını cəlb edərək, xarici xüsusi xidmət orqanının təlimatına uyğun şəkildə mitinqlər və kütləvi iğtişaşlarda istifadə olunmalarını təmin etmələri barədə tapşırıqlar verilib.Məlum olmuşdur ki, qabaqcadan aparılan danışıqlar nəticəsində müvafiq xarici dövlətin səlahiyyətli şəxslərinin istəyinə uyğun olaraq, "Milli Şura"nın 2013-cü ildə bu xarici dövlətin rəhbərliyinə ünvanladığı gizli məktubda "şura"nın fəaliyyətinin dəstəklənməsi xahiş edilmiş, həmin ölkədə aparılan "islahatlar"ın Azərbaycanda da həyata keçirilməsi üçün Azərbaycan dövlətinə təzyiq göstərilməsi təklif edilib

### Tapşırıqların mərkəzində Abbas Abbasov və Ramiz Mehdiyev dayanıblar

Dövlət Təhlükəsizliyi Xidməti Ramiz Mehdiyev barəsindəki cinayət işi ilə bağlı açıqladığı məlumatdan aydın olur ki, vətən xainləri ölkə ərazisində təxribatlar, qarşıdurmalar törətmək üçün hər cür çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinməyiblər. Belə ki, Əli Kərimli ortaq dostları ilə baqcadan əldə olunmuş ümumi razılaşmaya uyğun olaraq Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar verib.

Məlumdur ki, o zaman təxribata cəhd olundu. Milli Məclisin içərisinə daxil olan bir neçə AXCP və Milli Şuranın təxribatçı ünsürü dövlət binasının stol və stullarını , pəncərələrinin sındırdılar. Ancaq hüquq-mühafizə orqanları vaxtında lazımı tədbirlər görərək təxribatçıları zərərsizləşdirdi. Bunla da Əli Kərimlinin, Abbas Abbasovun, Ramiz Mehdiyevin və digərlərinin məkrli planlarının genişlənməsinin qarşısı alındı.

### Evindən 17 milyon manatdan artıq pul vəsaiti aşkarlanaraq götürüldü

Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında dövlət hakimiyyəti əleyhinə gizli plan və fəaliyyət istiqamətlərini özündə ehtiva edən "Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər" başlığı altında müvafiq xarici dildə hazırladığı yazılı materialı köməkçisi Əmirov Eldar Qurban oğlu və digərləri vasitəsilə həmin sənəddə nəzərdə tutulan məsələlərin birgə razılaşdırılması məqsədilə 27 sentyabr 2025-ci il tarixində Əli Kərimliyə təqdim etmiş, 2025-ci ilin oktyabr ayının 3-də sözügedən yazının yekun redaktə olunmuş nüsxəsini qabaqcadan şəxsən əlaqə saxladığı xarici dövlətin xüsusi xidmət orqanlarının rəhbər vəzifəli şəxslərinə faktiki sahibi olduğu "Şərq-Qərb" ASC-nin əməkdaşları vasitəsilə göndərmiş, qeyd olunan göndəriş texniki olaraq fiksə edilib.Ramiz Mehdiyev dövlət hakimiyyətinin xarici xüsusi xidmət orqanlarının köməyi ilə ələ keçirilməsi və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmiş, xarici dövlətin nümayəndələrinə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd kömək etməklə dövlətə xəyanət edib. Bundan əlavə, Ramiz Mehdiyev 13 oktyabr 2025-ci il tarixinədək olan müddətdə cinayət yolu ilə əldə edilmiş 17.000.000 manatdan artıq pul vəsaitini leqallaşdırıb.Təbii ki, cinayət işi üzrə araşdırmalar davam etdirilir. Başlıca məqam isə ondan ibarətdir ki, cinayətin təşkilatçıları və onların icraçıları ifşa olunublar.

***İLHAM ƏLİYEV***

***P.S. Növbəti sayımızdan başlayaraq "Ziyalılar Forumu"nun vətən xainləri ilə işbirliy və onların qarşısına hansı vəzifələrin qoyulması haqqında yazılar dərc olunacaq.***

## Süni intellektli gələcəyə baxış



***Nizami NOVRUZOV, Texnika üzrə fəlsəfə doktoru***

Fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib. Müşavirədə ölkənin rəqəmsal inkişaf strategiyası və informasiya-kommunikasiya texnologiyaları sahəsində gələcək prioritetlər müzakirə olunub. Dövlət başçısı bu sahədə atılacaq addımlarla bağlı tapşırıqlar verib.

Bəli, qeyd edək ki, XXI əsrin əsas resursu məlumat, əsas gücü isə süni intellektdir. Bu müşavirə məhz ölkənin inkişaf modelində keyfiyyətcə yeni istiqaməti müəyyənləşdirdi. Dövlətimizin başçısının sözləri ilə desək, bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Bu, sadəcə texnoloji yenilənmə deyil, strateji seçimdir.

Azərbaycanın coğrafi mövqeyi - Asiya ilə Avropanın kəsişməsində yerləşməsi indiyədək nəqliyyat və enerji dəhlizləri üçün strateji üstünlük yaradıb. İndi isə həmin üstünlük rəqəmsal magistrallara çevrilməlidir. Rəqəmsal arxitekturanın əsas şərtlərindən biri enerji təminatıdır. Süni intellekt və iri data mərkəzləri böyük enerji gücü tələb edir. Prezident İlham Əliyev müşavirədə vurğuladı ki, son 20 ildə Azərbaycanın generasiya gücü iki dəfə artaraq 10 min meqavata çatıb və hazırda ən azı 2 min meqavat istifadə edilməyən potensial mövcuddur. Bu göstərici region üçün nadir üstünlükdür. Üstəlik, bərpaolunan enerji sahəsində imzalanmış müqavilələr gələcəkdə əlavə güc yaradacaq. Bu isə Azərbaycanın yaşıl enerji əsasında fəaliyyət göstərən data mərkəzləri qurmaq imkanını genişləndirir və Avropanın karbon neytrallığı siyasəti ilə uzlaşır. Onu da qeyd edək ki, dövlət başçısının hər bir nazirlikdə rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik üzrə məsul şəxslərin müəyyənləşdirilməsi ilə bağlı tapşırığı beynəlxalq idarəetmə təcrübəsinə uyğun sistemli yanaşmadır. Prezident İlham Əliyevin süni intellekt və rəqəmsal infrastrukturu prioritet elan etməsi həm daxili idarəetmə islahatı, həm də beynəlxalq tərəfdaşlara yönəlmiş strateji mesajdır. Amerika Birləşmiş Ştatları ilə imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasında süni intellekt, data mərkəzləri və rəqəmsal infrastruktur üzrə əməkdaşlıq istiqamətlərinin ayrıca əksini tapması, eyni zamanda Avropa İttifaqına üzv ölkələr və Çin Xalq Respublikası ilə mövcud strateji tərəfdaşlıq formatları bu sahədə çoxtərəfli əməkdaşlıq imkanlarını genişləndirir. Mövcud enerji generasiya gücü, tranzit və fiber-optik bağlantılar, eləcə də sabit investisiya mühiti süni intellekt və data mərkəzi layihələri üzrə beynəlxalq texnologiya şirkətləri və maliyyə fondları üçün Azərbaycanın praktiki və iqtisadi cəhətdən cəlbedici platforma olduğunu göstərir.

Dövlət başçısı həmçinin regionların rəqəmsal imkanlarının genişləndirilməsinin vacibliyini vurğuladı. Onun fikrincə, paytaxtla bölgələr arasında rəqəmsal fərqin aradan qaldırılması sosial ədalətin təmin olunmasına və iqtisadi fəallığın artmasına xidmət edəcək. Bu məqsədlə genişzolaqlı internet şəbəkəsinin əhatə dairəsinin artırılması, elektron xidmətlərin regionlarda əlçatanlığının təmin edilməsi və rəqəmsal savadlılığın yüksəldilməsi prioritet vəzifələr sırasındadır. Onun sözlərinə görə, investisiya mühiti də rəqəmsal transformasiya üçün əlverişlidir. Son 20 ildə ölkə iqtisadiyyatına 350 milyard dollardan artıq sərmayə qoyulub. Xarici investisiyaların qorunması, uzunmüddətli neft-qaz müqavilələrinin sabit icrası transmilli şirkətlərlə etibarlı tərəfdaşlıq modelini formalaşdırıb.

Bir pedaqoq kimi demək istəyirəm ki, süni intellektin sürətlə inkişaf etdiyi bir dövrdə məktəblərdə uşaqlara yalnız akademik biliklərin deyil, həm də yumşaq bacarıqların öyrədilməsi daha da vacib hala gəlir. Nəticə etibarilə süni intellekt dövründə məktəblərin əsas vəzifəsi şagirdlərə yalnız bilik deyil, həm də öz emosiyalarını idarə etmək, başqaları ilə əməkdaşlıq etmək və mürəkkəb problemlərə yaradıcı yanaşmaq bacarıqlarını öyrətməkdir. Ən vacib bacarıq isə öyrənməni qısa yollardan üstün tutmağı, yeni işi süni intellektə tapşırmadan əvvəl onu özünün bacarmağını öyrənməkdir. Beləliklə, "Azərbaycanın yeni rəqəmsal arxitekturası" üzrə müşavirə onu göstərdi ki, ölkə rəqəmsallaşmanı artıq ayrı-ayrı xırda layihələr kimi yox, vahid plan və vahid idarəetmə ilə həyata keçirmək mərhələsinə keçir.

# Müqəddəs milli dəyərlərimiz - Dövlətçilik şüuru

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**(I YAZI)**



İnsanlıq tarixi minillərdir icmalardan dövlətlərə, imperiyalaradək uzun bir yol keçib. Bəşəriyyətin son 5 illik tarixi dövlətçilik tarixinin bərqərar olması dövrüdür. İlk şəhər dövlətləri məhz bu tarixdə meydana çıxıb. İnsan kütlələri qəbilələrdən, tayfalardan, icmalardan millət, xalq səviyyəsinədək məşəqqətli bir yol keçib və bu yolda ən böyük nailiyyətlərdən biri də dövlət sisteminin yaradılmasıdır. Bəs dövlət nədir, nə deməkdir?

Bu yazıda dövlət anlayışının elmi-siyasi izahından daha çox onun mənəvi-ideoloji, fəlsəfi mahiyyətindən danışmaq istəyirik.

Sadə dillə desək, dövlət müəyyən bir coğrafi ərazidə yaşayan insanların etnik və dini mənsubiyyətindən asılı olmayaraq birləşib özlərini və ölkəni idarə edəcək bir institut, bir aparat yaratmasıdır. Bu idarəedici sistem həmin ərazidə yaşayan bütün insanları- dini, siyasi, sosial qrupları xalq və vətəndaş olaraq birləşdirən bir quruluşdur. Və dövlətin əsas məqsədi, mahiyyəti də həmin ərazidə yaşayan insanların Vətən adlandırdıqları məskəni qorumaq, burada yaşayan insanların həyatını yaxşılaşdırmaq, onların təhlükəsizliyini qorumaq, xarici düşmənə qarşı mütəşəkkül mübarizə və müdafiə sistemi qurmaq, həmçinin ölkənin inkişafını təmin etmək və vətəndaşların sağlam və təhlükəsiz gələcəyini sığortalamaqdır.

Azərbaycan xalqının da dövlətçilik tarixi çox qədimdir və bizim eradan əvvəlki minilliklərə dayanır. Azərbaycan xalqının tarixi ərazilərdə ilk vaxtlar (3-4 min il əvvəl) kiçik şəhər dövlətləri, sonralar iri dövlətlər, daha sonralar isə imperiyalar yaranmışdır. Bu dövlətlərin əsas ideoloji bazası etnik cəhətdən türk, dini cəhətdən islam əsaslı xalqlardan formalaşsa da, burada müxtəlif etnik qrupların və dini konfessiyaların da birgə yaşayışı əsasında qurulub- həm də sülh və mehribanlıq içində.

Orta əsrlərdə xalqımız dünyanın ən nəhəng imperiyalarından olan dövlətlər yaradıb. Böyük bir coğrafi ərazidə hökm edən bu dövlətlər elmin, mədəniyyətin inkişafına töhfə verib. Son əsrlərdə isə dünyada gedən siyasi proseslər digər böyük imperiyaların bu ərazilərə hökm etmək cəhdləri ilə müşayiət olunub və bir çox hallarda da buna nail olublar. Ərəb-Xəzər müharibələrindən tutmuş, Osmanlı-Səfəvi müharibələrinədək, Rusiya-İran müharibələrindən tutmuş 1-ci dünya müharibəsinədək çox böyük toqquşmalar xalqımızın tarixi vətəni üzərində baş verib. Nəticədə Azərbaycan türkləri öz tarixi vətənlərinin böyük dövlətlər arasında bölünməsi ilə üz-üzə qalıblar. Çar Rusiyası və İran arasında gedən müharibələr tarixi Azərbaycan ərazilərinin bu 2 dövlət arasında bölünməsinə səbəb oldu (Gülüstan və Türkmənçay müqavilələri əsasında).

Son əsrlərədək dövlətlər əsasən sülalə hakimiyyətləri, imperiyalar şəklində mövcud olmuşdur. Lakin son əsrlərdə demokratik sistemli, seçkili orqanlara malik (məsələn, respublika quruluşu) dövlətlərin yaranması baş vermişdir.

Dünyada respublika quruluşlu dövlətlər erasının başlanması zamanı Azərbaycan xalqı da özünün respublika tipli dövlət yaratma arzularını həyata keçirməyə çalışdı. 1914-1918-ci illərdə baş vermiş 1-ci Dünya Müharibəsi zamanı yaranmış tarixi fürsət (Çar Rusiyasının zəifləməsi və Qafqaza nəzarətini itirməsi) buna zəmin yaratdı. Şimali Azərbaycanda yaşayan ziyalılar Qafqaz seyminin dağılmasından istifadə edərək 1918-ci il mayın 28-də Azərbaycan Respublikasını elan etdilər. Cənubda da belə cəhdlər oldu, lakin müvəffəqiyyət qazanmadı.

Beləliklə, dünya tarixində Azərbaycan adlı respublika peyda oldu. Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsindən sonra orada qurulan Sovet hakimiyyəti keçmiş Çar Rusiyasına daxil olan ərazilərdə sosialist inqilabları və hərbi müdaxilə vasitəsilə sosialist respublika qurulmasına çalışdı. Nəticədə 1-ci respublikamız süqut etdi və 1920-ci ildə qurulan 2-ci respublika-Azərbaycan Şura Cumhuriyyəti 2 il formal şəkildə müstəqil respublika olaraq yaşadı, 1922-ci ildə isə müttəfiq respublika kimi SSRİ-nin tərkibinə daxil oldu.1991-ci ildə Sovet İttifaqının dağılması ilə Azərbaycan müstəqilliyini əldə etdi və 3-cü respublika BMT-yə üzv olaraq dünyada müstəqil bir Azərbaycan dövləti kimi yerini tutdu.

Lakin hələ 80-ci illərin sonundan başlayaraq ermənilərin daxili və xarici havadarlarının da yardımı ilə Azərbaycanın Qarabağ bölgəsində başlatdığı seperatçılıq və terrorçuluq hərəkətləri daha sonra müharibəyə çevrildi. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etdikdən sonra dövlətimiz hələ tam formalaşmamışdı və ağır müharibədə tək qalmışdı. Müstəqilliyin ilk illərində hakimiyyətə gələn qüvvələrin yarıtmaz işi sayəsində ölkə ağır iqtisadi böhrana, sosial çöküşə, müharibədə uğursuzluqlara və torpaq itkilərinə məruz qaldı. Ermənistana isə, xarici dövlətlər (Rusiya, ABŞ, Fransa və s) və dünyada böyük gücə malik olan erməni lobbisi yardım edirdi. Nəticədə Ermənistan Qarabağ bölgəsini işğal etməyə nail oldu.

Ölkənin uçuruma getdiyini görən ziyalılar son çıxış yolu olaraq həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyən böyük siyasətçi, səriştəli dövlət xadimi Heydər Əliyevi köməyə çağırdılar. Ziyalıların və artıq başqa yol qalmadığını görən ölkə hakimiyyətindəkilərin dəvəti ilə ümummilli lider 1993-cü il iyunun əvvəlində Bakıya gəldi.




Ulu öndər əvvəlcə Ali Sovetin sədri seçildi. Bir müddət sonra ölkənin rəhbəri olan Əbülfəz Elçibəy prezident postunu atıb Naxçıvanadoğulduğu Kələki kəndinə qaçdı.

Sonrakı proseslər məlumdur-ümumilli lider Heydər Əliyev keçirilən prezident seçkilərində qalib gələrək ölkənin başına keçdi. Müharibədə dönüş yaratmaq istəyən ulu öndər ökəmizin bunun üçün maliyyə və hərbi imkanlarının olmadığı bir şəraitdə atəşkəs müqaviləsi bağlamağa məcbur oldu. Daha sonra iqtisadi islahatlara və hərbi quruculuq işlərinə başlanıldı. Getdikcə ölkəmizin iqtisadi-maliyyə qüdrəti artmağa başladı, ordumuz gücləndirildi, dünyada siyasi nüfuzumuz artmağa başladı.

2003-cü ildə dünyasını dəyişən ulu öndərin layiqli davamçısı, ondan sonra ölkənin rəhbəri seçilən Prezident İlham Əliyev xalqın çox böyük dəstəyi və etimadı ilə dövlətimizin başına keçdi.

17 il ərzində onun apardığı iqtisadi islahatlar, hərbi quruculuq, siyasi diplomatik işlər öz nəticəsini verdi. Azərbaycan bütün sahələrdə Ermənistandan dəfələrlə daha qüdrətli bir dövlətə çevrilmişdi. Artıq əsas məqsədimizin (torpaqlarımızı azad etməyin) həyata keçirilməsi üçün hər şey hazır idi. Lakin Ermənistanın beynəlxalq aləmdəki havadarları torpaqlarımızı azad etməyə bizə imkan vermək istəmirdi. Bu problem həll edilməli idi. Bunun üçün çox güclü siyasi iradə var idi və bu dövlətimizin əsas məqsədi kimi qarşıya qoyulmuşdu. Artıq sadəcə uyğun tarixi şəraiti gözləmək qalırdı.

Dövlətimiz səbrlə dünyanın siyasi gücləri ilə əməkdaşlığını gücləndirir, onları Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini müdafiə etməyə vadar edirdi. Nəhayət, aparılan səbrli və əzmkar fəaliyyətin öz bəhrəsini verəcəyi vaxt gəlib çatdı. 2020-ci ilin 27 sentyabrında Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin əmri ilə torpaqların azad edilməsi əməliyyatına başladı. Cəmi ay yarım ərzində düşmən bütün cəbhələrdə darmadağın edildi.

Beynəlxalq aləmdən gələn təzyiqlər neytrallaşdırılmışdı və Azərbaycanın qarşısında dayanacaq qüvvə yox idi. Nəticədə noyabrın 9-da Ermənistan təslim olduğunu bəyan etdi və Rusiyanın vasitəçiliyi ilə faktiki kapitulyasiya sənədi olan Üçtərəfli Bəyannamə imzalandı. Hərbi əməliyyatlar dayandırıldı. Ermənistan ordusu qalan ərazilərdən də çıxarıldı, mülki ermənilərə Qarabağ bölgəsinin kiçik bir hissəsində Azərbaycan vətəndaşlığını qəbul etməklə yaşamaq hüquqi verildi. Bəyannamə əsasında sülhün təmin edilməsi üçün Rusiyanın sülhməramlı missiyası bölgəyə yerləşdirildi. Lakin ermənilər seperatçılıq və terrorçuluq əməllərindən əl çəkmədi və nəticədə Azərbaycan Ordusu 2023-cü ilin sentyabrın 19-da Xankəndi şəhəri və ətrafında antiterror əməliyyatına başladı. 1 günlük əməliyyat zamanı ərazidə erməni seperatçılığına və terrorçuluğuna birdəfəlik son qoyuldu.

Beləliklə, Azərbaycan Respublikası öz qanuni və rəsmi ərazilərində öz hakimiyyətini tam şəkildə bərqərar etdi. Bundan sonrakı mərhələ də heç də asan deyildi. Böyük bir coğrafi bölgə ermənilər tərəfindən xarabalığa çevrilmiş, yüzlərlə kənd, qəsəbə, şəhər yox edilmişdi. İndi ərazisi bəzi ölkələrdən daha böyük olan bu bölgəni yenidən qurmaq lazım idi. Azərbaycan dövləti ləngimədən bu işə başladı və bölgədə sürətlə bərpa və quruculuq işləri həyata keçirildi. 30 illik köçkünlük həyatı yaşamış insanlarımız tədricən öz yurdlarına köçməyə başladı.

Son 30 ildə baş verən proseslər bir daha dövlətin necə vacib və müqəddəs bir dəyər olduğunu aydın göstərdi. Bir millətin, xalqın dövləti varsa, o, özünü düşmənlərindən qoruya bilər, xalqın və ölkənin təhlükəsizliyini təmin edə bilər. Məhz bu tarixi təcrübəni bir daha yaşamağımız xalqımızda dövlətçilik şüurunu daha da gücləndirdi, milli dəyərlərin və vətənpərvərliyin ən uca dəyərlər olduğunu xatırlatdı.

Beləliklə, dövlətçilik şüurunun ən yüksək səviyyəyə çatdığı bir dövrü yaşayırıq. Bu gün hər bir azərbaycanlı öz dövləti və onun gücü ilə fəxr edir. Qalib dövlət, qalib xalq, qalib ordu təfəkkürü gənclərimizin milli dövlətçilik psixologiyasını daha da möhkəmləndirdi. Bu səbəbdən xarici mərkəzlərdən (həm şimaldan, həm qərbdən, həm cənubdan) Azərbaycan dövlətinə qarşı həyata keçirilən məkrli siyasətlər heç bir nəticə vermir. Azərbaycan xalqı öz dövlətinin arxasındadır və onu son nəfəsinədək qorumaq əzmindədir.

Bəli, tariximizin ən şərəfli dövrünü yaşayırıq- bu gün Azərbaycan dövləti dünyada qüdrətli, hörmətəlayiq bir dövlət olaraq tanınır və onun rəhbəri İlham Əliyev dünya liderlərinin cərgəsindədir. Müzəffər sərkərdə, səriştəli diplomat, qətiyyətli dövlət başçısı, xalqa söykənən lider, sülh təbliğatçısı və əməkdaşlıq carçısı kimi qlobal miqyasda tanınmış şəxsiyyət olan İlham Əliyev Azərbaycan adlı gəminin sükanı arxasında əzmlə dayanıb və ölkəmizi bütün tufanlardan, burulğanlardan məharətlə çıxarıb parlaq gələcəyə aparır. Dövlətimiz var olsun, liderimiz sağ olsun!

***Elçin Bayramlı***

SƏS
17 fevral
2026-cı il

# Rəqəmsal tələ:
## asılılıq zehnimizi yatırır



***Mütəxəssislərin fikrincə, virtual asılılığı olan şəxslərin zehni fəaliyyətini dayandıraraq yuxuya gedir. Çünki, virtual dünyanın asılılıq yaradan maddələrə bənzər təsirləri var, insanları "rəqəmsal burulğan"a sürükləyir və beyni düşünmək qabiliyyətindən məhrum edir. İşdən, məktəbdən və digər gündəlik məsuliyyətlərdən qalan və "boş vaxt" adlandırılan həmin zaman kəsiyini online vərdişə çevirən insanların zehni yuxu rejiminə keçir.***

Xüsusilə gənclər boş vaxtlarını səmərəli keçirmək yerinə virtual dünyada gəzişməyi daha çox seçirlər, texnologiya əsrində doğulan və ya böyüyən yeni nəsil real dünyadan uzaqlaşaraq virtual dünyanın cazibəsinə qapılırlar. Telefon, kompüter əsirinə çevrilən insanların başqa heç bir fiziki hərəkət etməməsi onları bir növ burulğana salır. Lembke insanların rəqəmsal dünyanın əyləncəsinə necə aludə olduqları və bu durğun mühitin ətalətə və motivasiya çatışmazlığına necə səbəb olduğu ilə bağlı danışıb. O bildirib ki, rəqəmsal narkotiklərin rahat və səysiz zövqlərindən nə qədər çox həzz alsaq, beynimizin mükafat yolunu mükafat neyrotransmitterimiz olan dopaminlə bir o qədər çox bombalayırıq ki, bu da "neyroaptasiya" adlanan bir prosesə gətirib çıxarır.

Lembke bildirib ki, neyroaptasiya prosesi vasitəsilə beyin mükafat yolundakı dopamin reseptorlarını azaltmaqla zövq, məmnuniyyət və motivasiya hisslərinin ötürülməsini boğur. Lembke rəqəmsal dünyanı narkotik maddə asılılığına bənzədərək bildirib ki, hər ikisindən də istifadə etmədiyimiz zaman depressiya, narahatlıq, əsəbilik, istək, ümumi yorğunluq, motivasiya itkisi kimi simptomları ilə qarşılaşırıq.

İnsanların boş vaxtlarını doldurmaq üçün virtual dünyaya aludə olmaq yerinə yaradıcılıq kimi idrak və zehni məşğuliyyətlərə vaxt ayırmasını daha məqsədəuyğun hesb edən professor deyir: "Rəqəmsal hipnoz bizi istirahət etmək, yaradıcı olmaq və özümüzü düşünmək qabiliyyətimizdən məhrum edir. Bu problemi aradan qaldırmaq üçün insan özünü virtual aludəçilikdən xilas etməlidir".

***Lalə Mehralı***

## Bakıda DƏHŞƏT:
## gənc boksçu döyüşdə öldü



Bakıda boksçu yarışda ölüb. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, fevralın 14-də iki yeniyetmə boksçu - Vaqif Rüfət oğlu Məhəmmədli və Əli Fazil oğlu Ruşanov arasında şəxsi məşqçilərinin istəyi ilə sınaq döyüşü (sparrinq) keçirilib. 6-7 dəqiqə davam edən sparrinq zamanı Əli Ruşanov huşunu itirərək yerə yıxılıb. Dərhal təcili tibbi yardım briqadası müdaxilə edib. O, 1 saylı Şəhər Klinik Xəstəxanasına çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. Hadisə ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır", - deyə federasiyanın mətbuat xidmətindən bildirilib.

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## İstixana qazları qlobal istiləşməni sürətləndirir: təhlükə 5-7 ilə pik həddə çatacaq



Ekstremal hava anomaliyaları getdikcə güclənir və istixana qazı emissiyaları növbəti 5-7 ildə pik həddə çata bilər. Bu barədə Pravda.Ru-ya Voyeykov Baş Geofizika Rəsədxanasının aparıcı tədqiqatçısı, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru və "İqlim Paradoksları" kitabının müəllifi Andrey Kiselyev məlumat verib.

Kiselyev izah edib ki, qlobal istiləşmənin qarşısını almaq mümkün deyil, çünki bu, təbii proseslərdən qaynaqlanır. İnsan fəaliyyəti yalnız istixana effektini gücləndirir və iqlim sistemini daha az sabit edir.

"Qlobal istiləşməni geri qaytarmaq, əlbəttə ki, mümkün deyil. İstixana effekti təbii olaraq mövcuddur və insanlar onu yalnız gücləndirirlər. Bu güclənmə bu gün baş verən və qarşıdakı onilliklərdə davam edəcək iqlim dəyişikliklərinə gətirib çıxarır. Yer kürəsinin iqlim sistemi çox hərəkətsizdir; yeni şəraitə uyğunlaşmaq üçün vaxt lazımdır. Buna görə də, bu prosesə təsir etmək üçün edilən hər hansı bir cəhd yalnız uzun illər ərzində təsirli olacaq",- deyə o qeyd edib.

"Yaşıl enerjiyə aktiv keçid olsa belə, bu, problemi tez bir zamanda həll etməyəcək. Qazıntı yanacaqlarının günəş və ya külək enerjisi ilə əvəz edilməsi mürəkkəb və bahalı bir prosesdir. Bu, bütün enerji infrastrukturunun yenidən qurulmasını əhatə etdiyi üçün böyük resurslar və vaxt tələb edir. Bundan əlavə, bu keçidi maneə törədən həll olunmamış texniki və ekoloji məsələlər hələ də mövcuddur. Bu, uzun və çətin bir yoldur",- deyə ekspert əlavə edib.

Klimatoloq qeyd edib ki, iqlim dəyişikliyinin pik həddi hələ qabaqdadır, lakin qlobal istiləşmənin təsirləri artıq nəzərə çarpır. O qeyd edib ki, ekstremal hava hadisələri daha tez-tez baş verir və onların miqyası daha dağıdıcı olur.

"İstixana qazı tullantılarının növbəti 5-7 ildə pik həddə çatacağı təxmin edilir. Lakin qlobal istiləşmənin təsirləri bu gün artıq hiss olunur. Qasırğaların, güclü yağışların, quraqlıqların və digər təbii fəlakətlərin artdığını görürük. Sığorta agentliklərinin statistikasına görə, son 40-50 ildə bu cür hadisələrin sayı 3-4 dəfə artıb və "Rosqidromet" oxşar məlumatları təsdiqləyir. Bölgədən və relyefdən asılı olaraq müxtəlif hadisələr güclənir- bəzi yerlərdə güclü yağışlar və daşqınlar, digərlərində quraqlıq, qasırğalar və tornadolar",- Kiselyev yekunlaşdırıb.

***Tərcümə - Elçin***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**